

Aydın Mədətoğlu

Bizim yazar

# Tarixdən bu günə - Azərbaycan türkləri

(başlanğıcı ötən sayımızda)

***XV əsrin sonlarında Ağqoyunlu şahzadeleri arasında baş veren hakimiyyet davalarından istifade eden Sefeviler Azerbaycanın siyasi-dini heyatında mühüm rol oynamağa başlayırlar. Uzun müddetli gergin mübarizeden sonra nehayet 1500-cü ilin sonunda Şirvan hakimi Ferrux Yaseri, 1501-ci ilde Haxçıvan erazisinde Əlvend Mirzeni meğlub eden, hemin ilde Bakını tutan ve 1501-ci ilin payızında tentene ile Tebrize daxil olan 14 yaşlı Şeyx İsmayıl «Şah» elan edilerek paytaxtı Tebriz şeheri olmaqla Sefevi Türk dövletinin esasını qoymuşdu.***

***1501-ci ilden 1736-cı ile qeder 235 il davam eden Sefeviler seltenetl Azerbaycanda feodal perakendeliyine son qoyaraq merkezleşmiş vahid Azerbaycan Türk dövleti yaratmış, erazilerini daha da genişlendirerek İmperiyaya çevrilmiş, ilk defe olaraq Azerbaycan Türkcesini resmi dövlet dili elan etmiş, Azerbaycan medeniyyeti, elmi ve edebiyyatının çiçeklenmesinde müstesna rol oynamışlar.***

Dövlət başçısı Şah İsmayıl Xətayinin doğma Türk dilində şeirlər yazdığını görən dövlətin bütün ərazilərindəki şairlər də ana dilində əsərlər yaratmağa başlamış və beləliklə də Azərbaycan ədəbi yazılı Türkcəsi xeyli zənginləşərək ərəb və fars dilləri ilə rəqabət edə biləcək bir səviyyəyə yüksəlmişdi. Səfəvi sarayında Həbibinin başçılığı ilə Süruri, Şahi, Matəmi, Tüfeyli, Qasımidən ibarət ədəbi məclis yaradılmış, xalq şerinin ən görkəmli nümayəndəsi Aşıq Qurbani sarayda yazıb-yaratmış, saz saraya daxil olmuş, şifahi xalq ədəbiyyatına aid yeni dastanlar yaranmağa başlamışdı.

***Bu dövr Azərbaycana Şah İsmayıl kimi dövlet başçısı, Mehemmed Füzuli kimi dahi mütefekkir, Hebibi, Saib Tebrizi, Qövsi Tebrizi ve b. kimi böyük şairler, Sultan Mehemmed, Kemaleddin Behzad kimi dahi ressamlar, Aşıq Qurbani, Tufarqanlı Abbas, Sarı Aşıq ve b. kimi ustad aşıqlar, onlarla müderris, tezkireçi, tarixçi, tebib, riyaziyyatçı, astronom, musiqiçi, memar, neqqaş, xettat, Şükrullah Şirvani, Mövlana Mirze Mehemmed, Mövlana Əbdülbaqi, Kerbelayi Baba Ferec, İbrahim Mirze ve b. kimi alimler bexş etmişdir. Bir sözle, Sefeviler dövründe Azerbaycan Türk medeniyyeti dolğun inkişaf yolu keçmiş, İmperatorluq erazisinde yaşayan diger xalqların da medeni inkişafında deyerli rol oynamışdır.***

XVIII əsrin əvvəllərindən başlayaraq Azərbaycan Səfəvilər dövləti üç tərəfdən - Şimaldan çar Rusiyası, Şərqdən Əfqan feodalları, Qərbdən Osmanlı İmperatorluğu tərəfindən hücuma məruz qalır. Vəziyyətin çıxılmaz olduğunu görən Səfəvi ordu başçısı Nadir xan əvvəlcə Əfqanları, daha sonra isə Rusları və Osmanlıları dövlətin ərazilərindən vurub çıxararaq 1732-ci ildə şah II Təhmasibi taxtdan salır və onun kiçik yaşlı oğlu Abbas Mirzəni III Şah Abbas adı ilə taxta çıxarıb özünü onun qəyyumu adlandırır. 1736-cı ildə III Şah Abbasın qəflətən ölümündən istifadə edərək Nadir xan Muğanda toplanan qurultayda özünü «Şah» elan edir. 11 illik hakimiyyəti dövründə Nadir Şah Əfşar mərkəzləşmiş Azərbaycan dövlətini bərpa edərək Hindistan və Əfqanıstanı da fəth edərək qısa müddətli olsa da bir İmperatorluq yaratmağa müvəffəq olur. Lakin 1747-ci ilin 9 mayında sui-qəsd nəticəsində öz sarayında qətlə yetirilən Nadir Şahdan sonra onun min bir əziyyətlə yaratdığı İmperatorluq dağılır. Azərbaycan xanlıqlara parçalanır, ayrı-ayrı ölkələrdə müxtəlif dövlətlər yaranır. Nadir Şahdan sonra Azərbaycan ərazisində 17 xanlıq, 5 sultanlıq və 5 məliklik yaranmışdı. ***Bu xanlıqlardan 8-i Güney Azərbaycanda, 8-i Quzey Azərbaycanda, biri ise Qerbi Azerbaycanda (İrevan Xanlığı) yaranmışdı. Quzeydeki sultanlıqlar Şeki xanlığından, melikliklər ise Qarabağ xanlığından asılı idi. Her bir xanlığın öz xanı, öz veziri, öz ordusu, hetta öz pulu var idi. Hakimiyyet irsi xarakter daşıyırdı. Kendler yüzbaşı ve kendxudalar, şeherler kelenterler, mahallar naibler, qalalar qalabeyiler terefinden idare olunmaqla hamısı xanlara tabe idiler. Bu xanlıqların her biri özünü müsteqil sayır, müsteqil xarici siyaset yeridir, bir-biri ile müharibe edir, erazilerini genişlendirmeye çalışırdılar.***

Artıq XVIII əsrin 60-cı illərində Güney Azərbaycan xanlıqlarını Kərim xan Zənd birləşdirib müəyyən mənada mərkəzi hakmiyyət yaratmağa nail olmuşdu. O, Quzey Azərbaycan Xanlıqlarını da nəzarət altına almağa çalışsa da, buna nail ola bilməmiş, daha sonra 1781-ci ildə hakimiyyətə gələn Ağa Məhəmməd şah Qacar Güney Azərbaycan xanlıqlarını və İran ərazisini özünə tabe edərək üzünü Quzey Azərbaycana çevirmişdi. Bu dövrdə Quzey Azərbaycan xanlıqlarının bir qismi Qacarlara, bir qismi Rusiyaya, bir qismi də Osmanlılara meyl edir, onlarla ittifaqa girməyə cəhd edirdilər. Lakin Osmanlı İmperiyasının özü çətin vəziyyətdə olduğu üçün xanlara kömək edə bilməmiş, ona görə də Quzey Azərbaycan uğrunda çar Rusiyası ilə Azərbaycan Qacarlar dövləti arasında mübarizə başlamış, Ağa Məhəmməd şah Qacarın Şuşada sui-qəsd nəticəsində öldürülməsi ilə «bu xanlıqların bütün varlığı böyük təhlükə qarşısında qaldı» (Bax: Azərbaycan tarixi, Bakı 1996, səh. 572). Azərbaycan belə bir vəziyyətdə XIX əsrə daxil oldu.

XVIII əsr Azərbaycanında bütün çətinliklərə baxmayaraq, Şəki xan sarayı, Şəkixanovlar evi, Cümə məscidi, İrəvanda Göy məscid, Şuşa, Əsgəran və Bayat qalaları, Şuşa məscidi və b. diqqətəlayiq memarlıq abidələri yaradılmış, Azərbaycan elmində və maarifində bəzi irəliləyişlər olmuş, musiqi, rəngkarlıq və memarlıq inkişaf etmişdi. Bu dövr Azərbaycana Hacı Məhəmməd Zare, Rəfai, Hüseyn xan Müştaq, Nicat Şirvani, Şakir Şirvani, Arif Şirvani, Arif Təbrizli, Ağa Məsih Şirvani, Xəstə Qasım, Şikəstə Şirvani, Şəkili Nəbini, Molla Vəli Vidadi, Molla Pənah Vaqif və b. şairlər, Əbdülrəzzaq Dünbülü kimi tarixçi, Zeynəlabdin Şirvani kimi coğrafiyaçı alimlər bəxş etmiş, «Şəhriyar dastanı», «Oğru və qazi» kimi nəsr əsərləri yaranmışdı. Bu dövr həmçinin Ağa Məhəmməd şah Qacar, Fətəli xan Əfşar, Cavad xan Ziyadoğlu, Əhməd xan Dünbülü, Hacı Çələbi, Pənahəli xan Cavanşir, Quba xanı Fətəli xan, Molla Pənah Vaqif kimi dövlət xadimləri yetişdirmişdir.

XIX əsrin əvvəllərindən başlayaraq, çar Rusiyasının cənubi Qafqaza, o cümlədən də Azərbaycana iddiaları artmış, nəhayət on illik müharibə ərzində çar Rusiyası Quzey Azərbaycanı tamamilə işğal edərək, öz imperiyası tərkibinə qatmış, beləliklə də Azərbaycanın bir hissəsi öz dövlətçiliyini itirmiş oldu. Bu vəziyyət Quzey Azərbaycanda XX əsrin 18-ci ilinə, yəni Azərbaycan Xalq Cümhuriyyəti qurulana qədər davam etdi. Güney Azərbaycan Türkləri isə öz dövlətçilik ənənələrini davam etdirmiş, nəhayət 1925-ci ildə ruslar və ingilislər tərəfindən Mazandaranlı Rza şahlıq taxtına çıxarılaraq 1000 illik Azərbaycan Türk hakimiyyətinə son qoyulmuşdu.



***Buna baxmayaraq, Quzey Azərbaycan 1918-1920-ci illerde öz dövletçiliyini berqerar etmiş, lakin bolşevikler terefinden bu dövlete de son qoyulmuş ve Quzey Azerbaycan yeniden 70 illik rus müstemlekesine çevrilmişdi. Nehayet 1991-ci ilde Quzey Azerbaycan yeniden öz müsteqilliyini berpa etmiş, dünya dövletleri sırasına daxil olmuşdur. Güney Azerbaycanda ise milli müsteqillik uğrunda mübarize davam etmekdedir. Artıq XXI esrde Bütöv, merkezleşmiş Azerbaycan dövletinin yaranması tarixi zerurete çevrilmişdir.***